desək, öz şəxsi təcrübələrinə əsaslanır. Hansı ki, bu fərdi, hətta ictimai və toplumsel təcrübələrin adını elm qoysaq da belə, böyük bir okeandan ayrılmış balaca damlalarıdır. O kiçik damlanın cinsi okeanın cinsi, yəni sudan olsa da, okeanın böyüklüyünü özündə əks etdirə bilməz. Xaqani elə bir məktəb və ya öz təbiri ilə desək, "dəbistan"a ayaq qoyur ki, orada bilmədiyi və öyrənmək istədiyi bir çox elmlərlə rastaşır. O elmlər mənəvi- ruhani hisslərin yaratdığı və bəsirət gözü ilə görülə bilən elmlərdir.

Onun "Dəbistan"ı heyrət vadisidir. Bu vadidə sənin qulağına pıçıldadığı elmlər əslində sənin ürəyinin dəftərinə yazılır və ona görə də yenicə öрənməyə başlamış Xaqani kimi tifli sərməst edir. Sual oluna bilər ki, başqa hansı məktəbdə və ya hansı elmləri oxumaqla bu kamala çatmaq olar?

Düşünmək və təfəkkür, xüsusilə də İslam dinindən sonra yeni mərhələyə daxil olmuşdur. Həzrəti Əli deyib: "Düşünmək ağılın, sükut isə düşünməyin əsasıdır". Xaqani öz ürəyini kamil bir Pir, özünü isə o "Dəbistan"ın tələbəsi kimi göstərir. Onun məktəbi dizinin üstündədir. O, öz dizinin üstündəki mədrəsədə həyatını mərifət kəsb etməyə sərf edir. Başını "Müraqibə"nin* dizinə qoyur və canının qulağını öz kamil piri, yəni ürəyinin müşfiqanə kəlamına tapşırır. Dizin üstündəki "məktəb" yalnız təfəkkür və müraqibə əhlinin məktəbidir. Əttari Neyşaburi, Bayəzid Bəstamini yad edəndə belə deyirmiş: "On üç il idi Şeyx ilə söhbət edirdim, amma ondan heç bir söz eşitməmişdim. O, həmişə başını dizinin üstünə qoyardı". Bu diz həmin dizdir ki, Sədi onu təəbbüd, yəni "bəndəlik dizi" adlandırır və "Gülüstan" kitabında onu belə vəsf edir: "Bir nəfər sahibdil başını müraqibə dizinə qoymuş, "kəşfi-şühud" bəhrində qərq olmuşdur. Başını qaldırandan sonra dostlarından biri soruşur: " Ayaq basdığın o bostandan (müraqibə) bizə hansı töhfəni gətirdin? Cavab verir ki: "Əgər bir gün istədiyim o gül ağacına çatsam, dostlarım üçün damənimi gül ilə doldurub hədiyyə gətirərəm".

Dizə baş qoymaq və onun yaratdığı hallar bir çox şair və ariflərin şeirlərində müşahidə olunur. Bidil Dəhləvi deyir: "Heç bir diz, nəfsani həvəslərlə qatlanıb cəm ola bilməz. Mənaya naməhrəm olanların başı təfəkkürlə dolu ola bilməz".

Fərdi təfəkkürə məhkum eləyən bu diz üstündəki dəbistan, bəlkə də elə Peyğəmbərin söylədiyi: "Bir saat təfəkkür yetmiş il ibadətdən qabaqdır" sözünün mənasıdır. Xaqani hamıya deyir ki, "səri- zanu" və ya "dizin başına" baş qoymaq yalnız təfəkkür və həqiqət əhlinə məxsusdur. Ancaq bunu da nəzərə almaq lazımdır ki, bu məsələ bütün dizlərə aid deyil, yəni hər bir dizin başı mütləq kamal və təfəkkürə çatmaq üçün dəbistan olmaya bilər. Xaqaninin irfanı baş qoyacağın "dizi" , başsız dizlərdən, yəni salikin yolunda dərmana deyil, divara çevriləcək zahiri dizlərdən azad olmanın və dürüst seçim etməyin məktəbidir.

Sədi Şirazi deyir: "Xud rah beguyədət ke çun bayəd rəft". Yəni "yol özü salikə deyir ki, necə və haradan yoluna davam etsin". Doğru məqsəd üçün yalnış yolu seçmək, əslində həmin məqsədin çirklənməyinə səbəb olur. Habelə, yalnış məqsəd üçün doğru yolu seçmək də saliki təbahi və yoxluğa aparır. Ona görə də Xaqani, doğru məqsədin məhz doğru yolun seçimi ilə tamamlandığına inanır.

Əslində bu arif insanların əlamətidir. Əttar Neşaburi deyir: "Arif o adamdır ki, həmişə təfəkkür və ibrət etməkdədir". Xaqani də inanır ki, əgər kimsə təfəkkür və ibrət əhli olsa, həm məkanı geniş və rahat olur, həm də tam bir təhlükəsizlik meydanına daxil olur.

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 2o yanvar.- S. 27.**